| FOMINOV CONSULTING | # İNFORMASİYA TƏHLÜKƏSİZLİYİ SİYASƏTİ |
|---|---|

2014-cü ildə təsis edilmiş "FOMİNOV CONSULTİNG" MMC 14.05.2025-ci il tarixli 33 nömrəli qərar və 506 nömrəli lisenziya əsasında Azərbaycan Respublikasında fəaliyyət göstərən sistem inteqrasiyası və informasiya texnologiyaları sahəsində ixtisaslaşmış şirkətdir. Şirkət rəqəmsal transformasiya, məlumat mərkəzi həlləri, kibertəhlükəsizlik, bulud texnologiyaları, biznesin davamlılığı, texniki dəstək və idarə olunan xidmətlər üzrə kompleks həllər təqdim edir.

Şirkətin fəaliyyətinin əsas prinsipləri müştəri ehtiyaclarına fərdi yanaşma, innovativ texnologiyaların effektiv tətbiqi, informasiya təhlükəsizliyinin təmin edilməsi və davamlı inkişafın dəstəklənməsidir.

"FOMİNOV CONSULTİNG" MMC rəhbərlik, əməkdaşlar və subpodratçılar daxil olmaqla təşkilatın bütün səviyyələrində keyfiyyətin idarə olunması, informasiya təhlükəsizliyinin təmin edilməsi və davamlı təkmilləşdirmə prinsiplərinə sadiqliyini bəyan edir. Müştəri məmnunluğunun təmin edilməsi, informasiya aktivlərinin məxfiliyinin, bütövlüyünün və əlçatanlığının qorunması şirkətin əsas prioritetləri sırasındadır.

İnformasiya təhlükəsizliyi prinsiplərinin tətbiqi ilə potensial risklər müəyyən edilir, qiymətləndirilir və minimuma endirilməsi məqsədilə müvafiq tədbirlər həyata keçirilir. Risk və imkanların idarə olunması təşkilatın davamlı inkişafına, etibarlı biznes əlaqələrinin qurulmasına və informasiya təhlükəsizliyinin təmin edilməsinə töhfə verir. İdarəetmə sistemi müntəzəm olaraq nəzərdən keçirilir, potensial imkanlar qiymətləndirilir və müvafiq fəaliyyətlər həyata keçirilir.

Şirkət İTİS (İnformasiya Təhlükəsizliyi İdarəetmə Sistemi) çərçivəsində fəaliyyətini Azərbaycan Respublikasının qüvvədə olan qanunvericiliyinin tələblərinə, ISO/IEC 27001:2022 standartının 5.2-ci bəndinin (Siyasət) tələblərinə və digər aidiyyəti normativ sənədlərə uyğun şəkildə həyata keçirir.

**ISO/IEC 27001:2022 standartının 5.2-ci bəndinə (Siyasət) uyğun olaraq, İnformasiya Təhlükəsizliyi İdarəetmə Sistemi (İTİS) çərçivəsində şirkət aşağıdakıları öhdəsinə götürür:**

- İnformasiya aktivlərinin məxfiliyinin, bütövlüyünün və əlçatanlığının qorunmasını;
- İnformasiya təhlükəsizliyi risklərinin müəyyən edilməsini və idarə olunmasını;
- Qanunvericilik və digər tətbiq olunan tələblərə uyğunluğun təmin edilməsini;
- İnformasiya təhlükəsizliyi məqsədlərinin müəyyən edilməsini və İTİS-in davamlı təkmilləşdirilməsini;
- Bu Siyasətin təşkilat daxilində bütün işçilərə və subpodratçılara çatdırılmasını, sənədləşdirilmiş məlumat kimi mövcud olmasını və zəruri hallarda maraqlı tərəflər üçün əlçatan olmasını təmin etməyi öhdəsinə götürür.

Direktor: Aytən Mustafayeva

İmza, tarix: 10.08.2026

FOMINOV CONSULTING AZƏRBAYCAN RESPUBLİKASI MƏHDUD MƏSULİYYƏTLİ CƏMİYYƏT LIMITED LIABILITY COMPANY AZERBAIJAN REPUBLIC